# Azərbaycan şeirinin yaddaşı - Zəlimxan Yaqubun MARAQLI ƏHVALATLARI

*Adalet.az Zəlimxan Yaqubla bağlı ən maraqlı əhvalatları təqdim edir.*

Zəlimxan Yaqub həyətdə ağacları sulayırmış. Oğlu gələndə görüb ki, atası ağaca söykənib xəyallar aləminə lövbər atıb. Yaxınlaşanda şairi silkələyib:

- Ata, nolub?

Zəlimxan Yaqub oğluna baxıb gülümsünüb:

- Oğul, sinəmə yaxşı şeir gəlib.
- Nə şeir?
- 10 dəqiqədən sonra gəl.

10 dəqiqədə keçib. Oğlu gəlib ki, bəs şeir demişdin. Onda Zəlimxan Yaqub deyib ki, qulaq as:

**Nə vaxta arxalan, nə baxta aldan,**
**Nə dövran, nə də bir çağ vəfalıymış.**
**Minbir daşürəkli dostdan, tanışdan**
**Bir daşlı, qayalı dağ vəfalıymış.**
**Nə toxa bel bağla, nə aca söykən,**
**Nə şaha arxalan, nə taca söykən,**
**Özün basdırdığın ağaca söykən,**
**Bağbandan min dəfə bağ vəfalıymış.**
**Zəlimxan dilində min dürlü dastan,**
**Gah toydan söz açır, gah da ki, yasdan.**
**Bahalı köynəkdən, əlvan libasdan**
**Kəfən etibarlı, ağ vəfalıymış.**

***

Bir gün Zəlimxan Yaqub gənc yazarları yığıb qonaqlıq verirmiş. Məclisin gur yerində Seymur Baycan dözə bilməyib, şairi tənqid eləməyə başlayıb.

- Şairin xarakteri olar, daha məddah olmaz...

Zəlimxan Yaqub halını pozmadan dinləyir, sonra ayağa durub Seymurun başından öpür. O vaxt Seymurun saçlı vaxtları idi. Zəlimxan Yaqub deyir:

- Ay oğul, görürsən, mən durdum, sənin saçından öpdüm. Amma o saçın yeməyimə düşsəydi, iyrənərdim. Dediyim odu ki, hər şeyin öz yeri var. Tənqidi get qəzetdə yaz, burdasa imkan ver, bir tikə zəhərimizi yeyək...

***

Qohumlarından biri döyüşkən xoruzlar gətiribmiş. Səhər yeməyində Zəlimxanın oğlu deyir ki, o xoruzları verərsən mənə, döyüşdürəcəm. Zəlimxan Yaqubun səsi eşidilir: "Bilirdim ki, mənim oğlum böyüyəndə xoruz döyüşdürən olacaq!"

***

Zəlimxan Yaqubu Şıxov çimərliyində görən iki nəfər mübahisə edirmiş: biri deyirmiş bu şair ola bilməz, o birisi isə ayağını dirəyibmiş ki, özüdür. Uzun mübahisədən sonra gedib soruşmağı qərara alırlar.

"Siz Zəlimxan Yaqubun qardaşısınız?" - mübahisə edənlərdən biri soruşub.

Zəlimxan Yaqub sakitcə:

- Bəli, - deyir, - qardaşıyam.

Qalib gələn tərəf sevincək əlini yuxarı qaldırır:

- Gördün? Zəlimxan Yaqubun burda nə işi var? İndi o süd gölündə-zadda üzür

***

Oğlunun danışdığına görə, xəstələnəndə onlarla adam zəng eləyib deyirmiş ki, şair, sənə qurban olum, böyrək lazımdısa, çıxarıb öz böyrəyimi verim.

***

Zəlimxan Yaqub məclislərin birində deyib ki, hansı elçiliyə getmişəmsə qızı almışam. Məclisdə iştirak edən bir nəfər zarafatyana qeyd edib:

- O vaxt Zəlimxan olsaydı, Leylini alardıq Məcnuna...



***

Dostlarından biri ona deyir:

- Şair, böyrəyində xəstəlik var. Yəqin yazmağı dayandırarsan...

Zəlimxan Yaqub cavab verib:

- Mən şeirimi yazıram. Nə qədər ki, nəfəsim gedib gələcək yenə yazacam. Şeiri ürəyimlə yazıram, böyrəyimlə yazmıram ki...

***

Zəlimxan Yaqub danışırdı ki, Yasamalda yaşadığımız vaxtlar idi. Hər səhər işə gedəndə bir kəmfürsət yolumun üstündə durub mənə deyirdi "Zəlimxan müəllim, sabahın xeyir. Mən də deyirdim, axşamın xeyir". Bu minvalla həmin söhbət dəfələrlə təkrarlandı. Axır bir gün o kəmfürsət dilə gəlib dedi:

- Ay Zəlimxan müəllim, mən hər gün sizinlə görüşəndə "sabahınız xeyir" deyirəm. Siz isə nədənsə mənə "axşamın xeyir" deyirsiniz...

Dedim ki, sözün dəyərini dərk etməyənləri səhər də, axşam da görsəm, dünya gözümdə zülmət qaranlığa dönür.

***

Vəfat etdiyi gün Rüstəm Behrudi onun haqqında belə demişdi:

"Azərbaycan şeiri öz yaddaşını itirdi".

**Ayxan Ayvaz**